***Aydın Ehtibar oğlu BƏHRƏMOV***
***i.f.d., Azərbaycan Kooperasiya Universiteti***
***"Menecment və ticarət" kafedrasının baş müəllimi***
***E-mail: bahramovaydin@gmail.com***

# AZƏRBAYCANDA ƏRZAQ TƏHLÜKƏSİZLİYİNİN DÖVLƏT TƏNZİMLƏNMƏSİNİN QİYMƏTLƏNDİRİLMƏSİ VƏ TƏKMİLLƏŞDİRİLMƏSİ MEXANİZMLƏRİ

***Xülasə***

Azərbaycanda əhalinin ərzaqla təminat səviyyəsinin mövcud vəziyyətinin hərtərəfli tədqiqi, ərzaq təhlükəsizliyində olan problemlərin qiymətləndirilməsi və onun həlli üçün təklif və tövsiyələrin hazırlanması tədqiqatın məqsədidir.

Tədqiqatda beynəlxalq təcrübə nəzərə alınmaqla daxili ərzaq təhlükəsizliyinin inkişaf yolları müəyyənləşdirilmişdir. Əhaliyə etibarlı qida təchizatı səviyyəsinin yüksəldilməsi imkanları müəyyən edilmişdir.

***Açar sözlər: ekoloji vəziyyət, qida təhlükəsizliyi, investisiya, dövlət tənzimlənməsi, ərzaq istehsalı.***

***

Azərbaycanın davamlı və dayanıqlı iqtisadi inkişafı şəraitində ölkə əhalisinin ərzaq təhlükəsizliyinin təmin edilməsi əsas prioritet məsələlərdəndir. Respublika əhalisinin ərzaq təhlükəsizliyinin təmin edilməsi həmişə aktual məsələ olmuşdur. Bu məqsədlə bir sıra iqtisadi planlar həyata keçirildi. Respublika Prezidentinin 6 dekabr 2016-cı il tarixli 1138 nömrəli Sərəncamına əsasən, "Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi" qüvvəyə minmişdir. Bu, ərzaq təhlükəsizliyini təmin etmək üçün xüsusi əhəmiyyətə malik olan iqtisadi sənəddir. Bu Strateji Yol Xəritəsi milli ərzaq təhlükəsizliyinin yerli istehsal hesabına təmin edilməsinə əsaslanır. Azərbaycan Respublikası Prezidentinin 29 aprel 2019-cu il tarixli Fərmanı ilə "Azərbaycan Respublikasının qida təhlükəsizliyinin təmin edilməsinə dair 2019-2025-ci illər üçün Milli Proqram" təsdiq edilmişdir. Proqramın əsas məqsədi qida istehlakçılarının sağlamlığının və hüquqlarının qorunması sahəsində mövcud mexanizmlərin və qida təhlükəsizliyinə nəzarət sistemlərinin təkmilləşdirilməsi üçün zəmin yaratmaqdır. Azərbaycanın iqtisadçı alimləri professorlar E.A.Quliyev və B.H.Ataşov qida təhlükəsizliyi məsələləri ilə bağlı ardıcıl tədqiqatlar aparmışlar. Professor E.A Quliyev qeyd edir ki: "Ölkədə səmərəli formalaşdırılmış vergi sistemi, eləcə də düzgün seçilmiş fiskal mexanizmlər həm də qida sənayesinin inkişafına stimullaşdırıcı təkan verə bilər və nəticədə vergilərin artırılmasına müsbət təsir göstərə bilər. [4, s. 36].

Ölkə əhalisinin ərzaq təhlükəsizliyinin təmin edilməsi məqsədilə dövlət tərəfindən həyata keçirilən tənzimləmə tədbirləri iqtisadi səmərəliliyin əsas mövzularından biridir. Azərbaycan xalqının ərzaq məhsulları ilə təminatının keyfiyyətinin yüksəldilməsi məsələsi əsas prioritet sosial-iqtisadi məsələlərdəndir. Bundan başqa, professor, əməkdar elm xadimi B.X. Ataşov yazmışdır ki: "Ərzaq təhlükəsizliyi yalnız xammal və ərzaq istehsalının dinamikliyi, innovativ inkişaf və sosial hadisə kimi yoxsulluğun aradan qaldırılması şəraitində mümkündür" [2, s.110]. Ərzaq keyfiyyətinin yaxşılaşdırılması əhalinin sağlamlığını təmin edir. Şəhər və kənd əhalisinin fasiləsiz ərzaq təminatı ərzaq təhlükəsizliyinin həlli yoludur. Bu problemin həlli ölkənin səmərəli sosial-iqtisadi uğuru kimi qiymətləndirilir.

Ərzaq təhlükəsizliyinin təmin edilməsi üçün dövlətin iqtisadi tənzimləmə istiqaməti təkmil olmalıdır. Bütövlükdə ərzaq təhlükəsizliyinin təmin edilməsi iqtisadi təhlükəsizlikdir. Qlobal ərzaq çatışmazlığı beynəlxalq təşkilatların diqqət mərkəzindədir. Ölkə əhalisinin ərzaq məhsulları ilə təminatında yaranan problemləri həll etmək üçün dövlət tənzimləməsi qəbul edilir. Dövlətin əsas vəzifələrindən biri də ölkə əhalisini qida və keyfiyyətli ərzaqla təmin etməkdir. Azərbaycanın ərzaq təhlükəsizliyi problemlərinin ilk tədqiqatçılarından olan, əməkdar elm xadimi, iqtisad elmləri doktoru, professor B.X.Ataşov yazır: "Balanslı qidalanma prinsipinin tələblərinə əsaslanan qida məhsullarının optimal strukturu insanı sağlam, şən, səmərəli və psixoloji cəhətdən sabit edir" [2, s. 107].

Respublika əhalisinin ərzaq təhlükəsizliyinin inkişaf istiqamətləri qəbul edilmiş dövlət proqramları ilə müəyyən edilmişdir.

Azərbaycanda ərzaq təhlükəsizliyini təmin etmək üçün aşağıda qeyd edilmiş iqtisadi tədbirlər aparılmalıdır:

- Milli ərzaq təhlükəsizliyi məsələlərinin nəzəri əsaslarının öyrənilməsi;
- Milli ərzaq təhlükəsizliyinə təsir edən amilləri müəyyən etmək;
- Qida sektorunda ölkə əhalisinin ərzaqla özünütəminetmə səviyyəsinin təhlili;
- Dövlətin daxili ərzaq bazarının xarici ərzaq bazarlarından asılılıq səviyyəsinin müəyyən edilməsi;
- Dövlətin əhalinin ərzaq təhlükəsizliyinə aqrar siyasətlə təsir edilməsinin qiymətləndirilməsi.

Ölkənin ərzaq təhlükəsizliyi probleminin dövlət tənzimlənməsi əsasında həlli isstiqamətləri müəyyən edilmişdir. Azərbaycan Respublikasında ərzaq təhlükəsizliyinin təminat imkanları daimi və dəyişən amillərdən birbaşa asılıdır. Daimi amillərə aid edilir: yoxsulluq həddində pul gəlirləri ilə yaşayan əhali qrupu, cəmiyyətin bütün üzvlərinin sağlamlığına təhlükə ola biləcək ayrı-ayrı balanslaşdırılmamış qida ünsürləri, xarici amillərin təsiri əsasında yaranan ərzaq təchizatındakı yaranmış nisbi çətinlik.

Dəyişən amillərə kənd təsərrüfatı məhsullarının istehsal həcminin qeyri-sabit olması, müxtəlif dövrlərdə müxtəlif əhali qrupları üçün ərzaq tədarükünün azalması və dünya bazarında qeyri-sabit tələb və təklif nisbətlərinin olması aiddir. Məsələn, ixrac ölkənin valyuta gəlirlərinin artmasına səbəb olmuşdur, o cümlədən qida təhlükəsizliyi, respublika əhalisinin bütün məhsullara olan ərzaq tələbatının müəyyən edilmiş fizioloji və qida normalarına uyğun olaraq tam ödənildiyini əks etdirir. Eyni zamanda daxili imkanlar, yəni yerli istehsal hesabına milli taxıl ehtiyatları tam formalaşdırılmışdır. Qida təhlükəsizliyi yerli imkanlar hesabına və müəyyən edilmiş fizioloji normalar və effektiv keyfiyyət standartları çərçivəsində ölkə əhalisinin qidaya olan tələbatını təmin etmək üçün zəruri iqtisadi tədbirlər sisteminin həyata keçirilməsini tələb edir. Ölkədə səmərəli formalaşdırılmış vergi sistemi, eləcə də düzgün seçilmiş fiskal mexanizmlər qida sənayesinin inkişafına stimullaşdırıcı təkan verə və nəticədə qida təhlükəsizliyi səviyyəsinin yüksəldilməsinə müsbət təsir göstərə bilər [3, s.31].

Ərzaq təhlükəsizliyi məsələlərinin öyrənilməsinin nəzəri əsasını yeni iqtisadi konsepsiya, ərzaq təminatı, əhalinin büdcə gəlirləri, istehsalçılar tərəfindən təmin edilən ərzaq məhsullarının dövriyyəsi, ölkədə kənd təsərrüfatının iqtisadi inkişaf səviyyəsi və s. təşkil edir. Azərbaycan Respublikası Prezidentinin ərzaq təhlükəsizliyinin təmin edilməsi ilə bağlı fərman və sərəncamları, Milli Məclisin qəbul etdiyi qanunlar və digər hüquqi aktlar ərzaq təhlükəsizliyinin təmin olunması üzrə normativ-hüquqi bazanın əsasını təşkil edir.

Qida təhlükəsizliyi məsələlərinə dair tədqiqatlarda müxtəlif tədqiqat metodlarından istifadə edilir. Məsələn, analitik metodlar, statistik təhlil metodları, sorğu metodları, ümumiləşdirmə metodları və s. Ölkənin ərzaq təhlükəsizliyinə bu məhsulların daxili bazarda mövcudluğu və ölkəyə ərzaq məhsullarının idxalı üçün maliyyə resurslarının yaradılması imkanları kimi amillər təsir edir.

Milli ərzaq təhlükəsizliyi istiqamətində bir sıra yeni tədbirlər həyata keçirilir. Azərbaycanın dövlət siyasətinin əsas istiqamətlərindən biri kimi ərzaq təhlükəsizliyi sahəsində islahatların davam etdirilməsi iqtisadiyyatın nailiyyəti hesab oluna bilər. Əhalinin səksən faizinin yerli istehsal olan ərzaq məhsullarına olan tələbatının ödənilməsi qida təhlükəsizliyinin qiymətləndirilməsində əsas meyardır. Beynəlxalq təcrübədə bu belə qəbul edilir.

Ərzaq təhlükəsizliyinin təmin edilməsi baxımından beynəlxalq təşkilatlar hesab edirlər ki, bu məhsullara olan tələbatın yetmiş faizinin yerli istehsal, otuz faizinin isə digər ölkələrdən idxal hesabına ödənilməsi müsbət haldır. Birləşmiş Millətlər Təşkilatının (BMT) Kənd təsərrüfatı və ərzaq təşkilatı (FAO) da bu cür qiymətləndirməyə üstünlük verir.

Hər bir ölkədə əhalinin ərzaq təhlükəsizliyi səviyyəsinin qiymətləndirilməsi üzrə göstərici sisteminə ölkənin kənd təsərrüfatı istehsalı və onun effektivlik göstəriciləri sistemi daxildir.

Yerli ərzaq istehsalı hesablama dövründə bütün əhalinin tələbatını tam ödəməlidir. Bir çox ölkələrdə fərdi məhsullar üçün alternativ ehtiyat fondları da yaradılmışdır. Bu fondların yaradılması

ərzaq təhlükəsizliyinin təmin edilməsi baxımından xüsusi əhəmiyyət kəsb edir. Ölkə əhalisinin ərzaq təhlükəsizliyinin fasiləsiz təminatına imkan verir.

Bu ehtiyat fondlarından müstəsna hallarda, məsələn, təbii fəlakətlər zamanı istifadə olunur ki, onların daxili istehsala mənfi təsirinin nəticələri aradan qaldırılır və əhalinin ərzaq məhsulları ilə təminatının fasiləsizliyi təmin edilir.

Milli ərzaq təhlükəsizliyinin təmin edilməsi üçün aşağıdakı əsas vəzifələr vardır:

- ölkədə istehsal olunan məhsulların daxili bazara çıxarılması;
- ölkədən digər bazarlara çıxarılan yerli istehsal mallarının çeşidinin artırılması;
- yerli istehsal məhsullarının xarici bazarlarda rəqabətə dözümlülüyünün artırılması;
- milli ərzaq təhlükəsizliyinin adekvat və hərtərəfli təminatı;
- yerli məhsulların daxili ərzaq bazarında bazar payının normallaşdırılması.

Yerli istehsalçıların səmərəli fəaliyyəti bilavasitə aqrar sahənin mövcud vəziyyətindən və inkişafından asılıdır. Respublikanın aqrar-sənaye kompleksinin istehsal strukturunun səmərəli təşkili üçün tələb olunan iqtisadi tənzimləmə bu məsələnin aktuallığını bir daha vurğulayır. Milli kənd təsərrüfatı siyasətinin əsas məqsədi daxili bazarı tam əhatə etməklə, ərzaq təhlükəsizliyini tam təmin etməlidir. Respublika əhalisinin ərzaq məhsullarına olan tələbatının ödənilməsi bilavasitə həmin məhsulların mövcudluğundan və onların daxili strukturunda müəyyən dəyişikliklərdən asılıdır. Respublikanın daxili ərzaq bazarı idxal olunan ərzaq məhsulları və yerli istehsal hesabına formalaşır. Xarici ticarət respublikanın ərzaq təhlükəsizliyinin formalaşmasında müstəsna rol oynayır. Ölkənin daxili ərzaq bazarında baş verən təklif dəyişikliklərini aşağıdakılarla əlaqələndirmək olar:

- Satışa çıxarılan ərzaq məhsullarının qiymət dəyişmələri;
- bu məhsulların əvəzedicilərinin qiymətindəki dəyişikliklər.

Ərzaq qiymətlərinin necə dəyişməsindən asılı olmayaraq, istənilən istehsalçının yeni məhsullarla daxili bazara daxil olmaq imkanı vardır, çünki o bu məhsulları ən son elmi və texnoloji nailiyyətlərdən istifadə etməklə istehsal etmişdir. Ərzaq məhsullarının istehsalına çəkilən məsrəflərin dəyişməsi və dövlətin vergi siyasətində baş verən dəyişikliklərlə əlaqədar məhsulun maya dəyərinin dəyişməsi ola bilir. Qida təhlükəsizliyinin təmin edilməsi qiymət strategiyalarına əsaslanmalıdır. Qiymətlər istehlakçıların tələbini təmin etməklə yanaşı, qidanın ekoloji təhlükəsizliyini və qida keyfiyyətlərini də nəzərə almalıdır. Ərzaq məhsulları ölkənin daxili bazarına daxil olduqdan sonra ticarətin inkişafı üçün normativ-hüquqi bazanın daha da gücləndirilməsinə ehtiyac yaranır.

## ƏDƏBİYYAT


1. Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivləri üzrə Srateji Yol Xəritəsi. 2016.
2. Ataşov B.X. Aqrar sahədə struktur və səmərəlilik problemləri (nəzəriyyə və praktika). – Bakı: – 2017, “Kooperasiya” nəşriyyatı, – 536 s.
3. Quliyev E.A. Etibarlı ərzaq təminatı sistemi: kooperasiya və inteqrasiya problemləri: monoqrafiya.– Bakı: Elm, 2013.– 308 s.
4. Quliyev E.A. Qlobal ərzaq təhlükəsizliyi: reallıqlar, çağırışlar və perspektivlər. – Bakı: “Kooperasiya” nəşriyyatı,– 2018, – 480 s.



***Айдын Эхтибар оглы Бахрамов***

***д.ф.э. Азербайджанский Университет Кооперации,***

***старший преподаватель кафедры “Меджмента и торговли”***

***E-mail: bahramovaydin@gmail.com***


## Механизмы оценки и совершенствования государственного регулирования пищевой безопасности в Азербайджане

***Резюме***


Целью исследования является всестороннее изучение текущей ситуации с продовольственной безопасностью населения в Азербайджане, оценка проблем продовольственной